# "Ədəbiyyatla cənnəti tapmaq" kitabı çap olundu

**Ülvi Babasoyun "Ədəbiyyatla cənnəti tapmaq" kitabı çap olunub.**

Adalet.az-ın məlumatına görə "Xan" nəşriyyatında çap olunan kitaba müəllifin esseləri daxil edilib.

Kitab sevgi, gülüş, ölüm və yaddaşı... ədəbiyyat və həyatla romantizə edir. Müəllif oxucunu postmodern epoxasının esseisti




kimi öz rəngli mətn dünyasına dəvət edir. Postmodernizm təkcə ədəbi yox, həm də ruhi vəziyyətdir. Zamanın ruhu, ədəbiyyatın ruhu...

Bu kitab mədəni, mifoloji, tarixi, dini və ədəbi mətnlərin kollajıdır. Ədəbiyyat həyata, həyat ədəbiyyata calanır. Kitabın redaktoru Elnarə Akimova, naşir Müşfiq Xandır.

ədalət.-2016.-22 dekabr.-S.4.